**Kiçik formaya, lakin məzmunca böyük tutuma malik lakonik, dərin emosional təsir gücü olan medalyer sənəti bir xalqın tunc salnaməsidir. Monumental heykəltəraşlıq nümunələri bu və ya digər səbəblərdən məhv edilərsə (məs: Bakıda V.Lenin, K.Marks, S.Kirov, M.Əzizbəyovun monumental heykəlləri və s.), medalyer sənəti bir neçə nüsxədə, bərk materiallarda hazırlandığı üçün uzun illər mövcud ola bilir.**

# Azərbaycan medalyer sənəti

## xarici ədəbiyyatda

**İnkişafı boyu zəngin ənənələr əldə etmiş, heykəltəraşlığın ən az öyrənilmiş sahəsi olan medalyer sənəti haqqında ölkəmizdə hər hansı tədqiqat işi və ya bu sahəni əhatə edə bilən ədəbiyyat çox az miqdardadır.**

Sənətşünaslıq elmləri doktoru, professor Cəmilə Novruzovanın Azərbaycan heykəltəraşlığına həsr olunmuş əsərlərində, tədqidatçı Mövsüm Əliyevin "Qobustan" jurnalındakı silsilə məqalələri və Vüsal Bağırovun "Azərbaycanda kiçik formalı heykəltəraşlığın inkişafı. (XX əsr)" adlı kitabında gedən məlumatlar istisna olmaqla Azərbaycan medalyer sənəti tarixini tam işıqlandıra biləcək hər hansı bir nəşr nümunəsi tapmaq mümkün deyil. Buna görə də xarici ölkələrdə nəşr olunmuş əsərlərdə bu mövzu ilə əlaqədar tədqiqatlar böyük maraq doğurur.

Belə tədqiqat işlərindən biri 1945-ci ildə Hertfordda nəşr olunmuş H.L.Rabinonun "İran şahlarının sikkə, medal və möhür albomu" (12) adlı əsəridir. Müəllif müqəddimədə əsərin yazılmasının çətin dövrə təsadüf etdiyini qeyd edir: "Müharibə şəraiti, Birləşmiş Krallıq və Fransa muzeylərindəki sikkə kolleksiyalarının kənar yerlərə köçürülməsi İran şahlarının 1945-ci ildə çap olunmuş sikkələr, medallar və möhürləri üzərində işi təsvir etməyə imkan vermir.

Orada səciyyəvi sikkə, medal, bəxşiş sikkələri və şah möhürlərinin seçilmiş nümunələri verilmişdir. Bu, xəttat və nəqqaş sənətlərinin inkişafını tədqiq etmək üçün faydalı material ola bilər və tədqiqatçı üçün bələdçilik edər. Mən Britaniya muzeyi Sikkələr və Medallar Departamentinə, Amerika Numizmatika cəmiyyətinin muzeyinə böyük minnətdarlığımı bildirirəm" (12, 1).

Xatirə sikkələri - ağır qızıl və gümüş sikkələr bəxşiş sikkələrinə aiddir. Onlar şaha təqdim olunmaq üçün, yaxud onun özünün kimə isə bəxşiş verməsi üçün kəsilirdi. "Dizaynca gözəl, ağır qızıl və gümüş sikkələr bütün şahlıqlarda eyni cür buraxılır, onlar padşahın şəxsi istifadəsi və onun saray əhlinə paylanması üçün nəzərdə tutulurdu" (1, 2).

Adətən, Şərqdə pul dövriyyəsində əsasən gümüş pullar işlədilirdi. Qızıl sikkələr isə nadir hallarda zərb olunur və pul tədavülündə demək olar ki, iştirak etmirdilər (5, 176) . Bu ,orta əsr yazılı mənbələrdə də öz təsdiqini tapır. Belə ki, XII əsr tarixçi alimi F.Rəşidəddin "Cami ət-təvarrix" (4, 499) əsərində qeyd edir ki, "Qazan xan zamanında 100 misqal ağırlığında xüsusi qızıl sikkələr zərb olunurdu ki, onlar da hökmdara yaxın şəxslərə hədiyyə kimi təqdim edilirdi".

Müəllif bu fikri təsdiq edərək, Şardenin əsərindən iqtibas gətirir. XVII əsrdə yaşamış fransız səyyahı Şarden öz əsərində yazırdı: "İranlılar qızıl pul dövriyyəsinə malik deyillər. Qızıl sikkələr isə tacqoyma mərasimlərində, Novruz bayramında zərb olunur və əhali arasında işlənmir. Onların dəqiq adı yox idi və onları tila adlandırırdılar" (10, 182). Bundan belə bir nəticə çıxır ki, qızıl sikkələr əsasən memorial və donativ xarakter daşıyır, təntənəli hadisələrdə mükafat kimi paylanılırdı.

Bu hal təkcə Azərbaycanda deyil, digər xalqlarda da mövcud idi. Məsələn, A.Oleariy Rus çarlarının sikkələri haqqında yazırdı: "Qızıl sikkələr azdır. Böyük knyaz qızıl sikkələri ancaq düşmən üzərində qələbə qazandıqda və ya digər vəziyyətlərdə

çarın xüsusi qaygısı ilə əsgərlərə paylamaq üçün (3, 728), Türkiyədə isə Sultan xanımının, hətta hamiləliyinə həsr edilmiş qızıl sikkələr zərb olunurdu (5, 26).

Daha sonra müəllif 1500-ci ildən başlayaraq İran taxtında oturmuş şahların zərb etdiyi medal və sikkələr haqqında ətraflı məlumat verir:

I Şah İsmayıl Səfəvidən qızıl və gümüş sikkələr qalmışdır. Qızıl sikkələr Qəzvin, Şirvan, Təbrizdə, gümüş sikkələr Gəncə, Kaşan, İrəvan, Naxçıvanda zərb olunmuşlar.

Müəllif ardıcıl olaraq albomunda yer verdiyi bu dövrə aid olan medal və sikkələrin siyahısını verir. Əlavə olaraq qeyd etmək lazımdır ki, 1935-ci ildə Gəncə yaxınlığındakı Çaykənd kəndində Şirvanşahların və I Şah İsmayılın sikkələrindən ibarət pul dəfinələri tapılmışdır (1, 62). Y.A.Paxomov tərəfindən siyahıya alınmış bu dəfinədə I Şah İsmayılın Şamaxıda və Şabranda zərb edilmiş, hicri 911 (1505-1506) tarixli pulları vardır.

Bildiyimiz kimi, islam dini Məhəmməd peyğəmbərə aid edilən hədisə əsaslanaraq (hədisə görə canlı təsviri çəkən şəxs axirət günü yaratdığı canlıya ruh verə bilmədiyi üçün cəhənnəmə düşəcəkdir) canlı təsvirini qadağalamışdır. Bunun nəticəsində islamdan əvvəlki dövrdə sikkələr üzərində mövcud olan canlı təsvirləri ləğv olunur. Onların yerini kufi və ya nəstəliq xətti ilə yazılmış yazılar tutur. Əsas tip olaraq sikkələr üzərində aversdə ilk islam simvolu - "Allahdan başqa tanrı yoxdur (Lə ilahə İlləllah)", əks tərəfdə isə "Onun şəriki yoxdur" Quranın 112 ci "İxlas" surəsi və onun ətrafında isə " Məhəmməd onun rəsuludur" kəlamları yazılır.

I Şah İsmayıl dövründə Təbrizdə zərb olunan qızıl əşrəfidə nəbati ornamentlə bu yazılar sıx əlaqədə təsvir edilmiş və onlarla harmonik vəhdət təşkil etmişdir. Yüksək zövqlə, dinamik səpkidə çəkilmiş nəbati ornament arasında formaca onlara oxşayan zərif, incə, nəstəliq xəttinin təsviri bu sikkələri əsl sənət nümunələri səviyyəsinə qaldırır.

Məhz Səfəvilər dövründə pul dövriyyəsinə şiə etiqad rəmzini bildirən yeni sikkələr buraxıldı:" Allahdan başqa tanrı yoxdur. Məhəmməd -- Allahın elçisidir. Əli -Allahın dostudur". Pulların üstündə on iki şiə imamının adları və "Müqəddəs şahın (yəni Əlinin) qulu" ifadəsi, kiçildilmiş formada Şah İsmayılın adı göstərilmişdir (1, 54).

I Təhmasibin sikkələri öz sələfinin sikkələrinə bədii tərtibatca çox oxşayırdı. Onlardan birinin əks tərəfində imamların adları üç-üç qruplarda sikkənin yerliyində, sikkəxananın adı isə medalyonun mərkəzində, şiə müddəası isə kənarlarda boş yerlərdə idi. Qızıl sikkədə medalyonun mərkəzində ərəb dilində yazılar var, ancaq bu qədim sikkəyə əlavə kimi görünür.

Albomun 68-ci səhifəsində bizim üçün maraq kəsb edən Fətəli şah Qacarın oğlu Abbas Mirzənin dövründə zərb olunmuş Rus-İran müharibəsində hərbi igidliyə görə verilən aslan və günəş təsvirli medallar yer almışdır. Semantik mənasına görə bu təsvir olduqca maraqlıdır. Ümumiyyətlə, sikkələr, möhürlər, medallar üzərində olan təsvirlər heç də təsadüfi olmayıb, əcdadlarımızın dünyagörüşündən xəbər verən uzaq minilliklərin yadigarıdır.

Uzun illər sənət abidələrinin üzərində çəkilən bu təsvirlər Azərbaycan xalqının əski mifik görüşlərini, inamlarını, adət-ənənələrini, bədii və ictimai təfəkkürünü özündə bariz şəkildə əks etdirir. Tədqiqatçı F.Əfəndinin "Türk xalqlarının etnoşüuru və incəsənəti" (5, 11) əsərində haqlı olaraq göstərdiyi kimi ari xalqlarının (hindiran) mədəniyyət və incəsənət abidələri, qonşu türk xalqlarının abidələrindən fərqli olaraq daha dolğun və ətraflı öyrənilsə də, bəzi alimlər tərəfindən səhv olaraq türk xalqlarına məxsus mədəniyyət abidələrinin yaranması İran xalqlarına aid edilmişdir. Konkret olaraq bu təsvirə gəldikdə qədim dövrlərdə aslan Şərqdə günəş, od, qüdrət və aydınlıq simvolu olmuşdur.

Onun və öküz təsvirinin kökü dünya xalqlarının incəsətində simvolikaya müvafiq olaraq doqquz minillik və ya daha çox tarixi olan qədim sivilizasiya -- Şumerdən gəlmişdir (8, 220). Aslan obrazının bu regionun incəsənətində peyda olması bizim eradan əvvəl XI əsrdə burada İran tayfalarının və b.e.ə VII əsrdə (672-671 il b.e.ə) birinci milli dövlətin yaranmasından (belə ki, hakim sülalə ariy mənşəli idi) çox əvvələ aiddir.

Buna misal olaraq Cənubi Azərbaycanın Qalardaş adlanan yerindən tapılmış b.e.ə XII-IX əsrə aid edilən bədəninin aşağı hissəsində svastika ilə işarələnən aslanın barelyef təsvirini göstərmək olar (7, 76). Görkəmli sənətşünaslar akademik R.Əfəndi və sənətşünaslıq namizədi T.Əfəndinin "Azərbaycan bəzək sənəti" (2, 30) əsərində də aslan obrazı haqqında məlumat var: "Aslan obrazı sənət abidələrimiz üzərində çox uzaq keçmişlərdən izlənir. Hələ 3-4 min il bundan əvvəl Azərbaycanda yaradılmış sənət əsərləri üzərində biz onun təsvirinə rast gəlirik".

Belə sənət əsərləri sırasına e.ə. I minilliyə aid edilən Gədəbəydən tapılmış tunc kəməri, Cənubi Azərbaycanın Sulduz mahalında yerləşən Həsənli təpəsindən tapılmış qızıl camı aid etmək olar. Əlavə olaraq Ziviyyədən tapılmış b.e.ə. səkkizinci əsrə aid edilən orijinal rəsmə malik, incə zövqlə, mütənasib şəkildə təsvir edilən aslanların qızıl lövhə üzərindəki barelyef fiqurlarını göstərmək olar. Aslan təsvirlərinə Qafqaz Albaniyasının paytaxtı Qəbələdən, Mingəçevirdən tapılmış keramik əşyalarda da rast gəlirik.

Albomda bu təsvirdə olan digər medal sonrakı illərdə də zərb olunmuşdur. 1250-ci ildə Məhəmməd şah (Abbas Mirzənin oğlu, 1834-1848) paytaxta daxil olması münasibətilə günəşin arxasında aslan təsviri, üz tərəfində və sonrakı əfsanə arxa tərəfində olan medal buraxdırdı. 1251-ci il (hicri) tarixli medalın üz tərəfinin yerliyində və kənarlarında ərəb dilində yazı, arxa tərəfində bir beyt şeir var. Nəhayət, üz tərəfində və arxasında yazı olan hərbi medal onun hakimiyyəti dövründə buraxılmışdır.

Sonrakı medallar Nəsirəddin şahın vaxtında buraxılmışdır. Medallardakı təsvirlər bir-birinə yaxın olduğu üçün onların təhlili üzərində durmuruq.

1. İgidlik üçün mükafat. Müxtəlif tarixlər. Üz tərəfdə şir, arxada günəş, yerlik.

2. 1293-cü il( hicri) Hakimiyyətin otuz illiyi və Qacar sülaləsinin yüz illiyi. Üz tərəfində dəfnə çələngi və palıd yarpaqları, aşağıda aslan əlində qılınc, arxa planda günəş. Medalın reversində dəfnə çələngi təsvir olunmuşdur. Dəfnə çələngi qədim vaxtlardan qələbəni təcəssüm edir, qəhrəmanlıq, cəsurluq rəmzidir. Palıd isə antik dövrdə Yupiterə həsr olunmuş qüdrət və qüvvət simvoludur (7, 52).

3. 1294-cü il (hicri). Şahın yeni sikkəxanaya gəlməsini əbədiləşdirmək münasibətilə kəsilmiş medal. Üz tərəfi 2-cu medalda olduğu kimi. Arxa tərəfi dəfnə çələngi içində təsvir olunmuşdur.

4. 1294-cü il (hicri). Xəmsədə qızılın kəşf olunması münasibətilə kəsilmiş medal. Üz tərəfi 2-cü medalda olduğu kimi.

5. 1295-ci il (hicri). Xorasanda qızılın kəşf olunması münasibəti ilə kəsilmiş balaca medal. Üz tərəfi dəfnə çələngi və palıd yarpaqları içində; lələkli tac hər şeydən aşağıda təsvir olunmuşdur.

6. 1297-ci il (hicri). Hərbi məktəb medalı. Üz tərəfi 2-cu medalda olduğu kimi. Arxa tərəf, yerlik, kənarlar hər dörd hissədə təkrarlanır.

7. 1299-cü il( hicri). Mükafata layiq xidmətlər üçün medal. Üz tərəfi 2-cu medalda olduğu kimi. Arxa tərəf çiçəklər və dairəciklər içində.

8. 1300-cü il (hicri). Nasiri məktəbinin medalı. Üz tərəfi 3-cu medalda olduğu kimi. Arxa tərəf yerlik, kənarlar beş hissədə. Eyni ştamp 1307-ci ildə istifadə olunmuşdur.

H. Rabinonun albomunda 12-ci nömrədə 1297-ci ildə buraxılmış "Artilleriya medalı" təqdim olunur. Üz tərəfdə yaraq-əsləhə, mərkəzdə şir və günəş təsviri verilmişdir. Arxa tərəf dəfnə çələngi və palıd yarpaqları içində təsvir olunub.

13. 1301-cü il( hicri). Nəsrəddin şahın Tehrandakı cəbbəxanaya gəlməsi münasibətilə kəsilmiş medal. Bu medalın aversində şahın üç-çərək büstü təsvir edilmişdir. Sənətkar təsvir etdiyi şəxsin zahiri bənzəyişini verməyə çalışmış, Nəsrəddin şahı qızılbaşlar dövrü ənənəsindən qaynaqlanan üstü ciqqa və lələklərlə bəzənmiş papaqda və təmtəraqlı zabit geyimində təsvir etmişdir. Arxa tərəfdə lələkli tac tutmuş iki mələk, aşağıda aslan və günəş, hər şeydən aşağıda lələkli tacdan enən uzun nazik lentlər.

14. Mülki qızıl medal. Üz tərəf 2-ci medalda olduğu kimi. Arxa tərəf çiçək və dairəciklər içində.

15. Hərbi qızıl medal. Üz tərəf 2-ci medalda olduğu kimi. Arxa tərəf dəfnə çələngi içində.

16. 13/3 Nəsrəddin şahın hakimiyyətinin 50 illiyi münasibətilə kəsilmiş medal. Üz tərəfində şahın üç-çərək sifəti, lələkli papaqda.

17. 13/3 Eyni münasibətlə kəsilmiş medal (16). Üz tərəfi 16-cı medalda olduğu kimi. Arxa tərəf çiçək və dairəciklər içində təsvir olunmuşdur.

**Əsrlər boyu xalqımızın iqtisadi, ictimai və mədəni həyatını əks etdirən bu kiçik abidələr tariximizi, mədəniyyətimizi öyrənmək işində böyük elmi əhəmiyyətə malik olmaqla bərabər, olduqca zəngin və qiymətli materialları özündə mühafizə edə bilmişdir.**

**Aytən ƏHMƏDOVA,**
*AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun dissertantı*

## Ədəbiyyat

1. Əfəndiyev O. Azərbaycan Səfəvi dövləti - Bakı, 2005.
2. Əfəndi R, Əfəndi T. Azərbaycan bəzək sənəti - Bakı, 2008.
3. Oleariy A. Qolştin səfərətxanasının Moskoviya və İrana 1633, 1636, 1638-ci illərdə səyyahətinin ətraflı təsviri - Bakı, 1989.
4. Rəşidəddin F. Cami ət-Təvarrix - Bakı, 1956.
5. Эфенди Ф. Этносознание и искусство тюркских народов - Баку, 19.
6. Раджабли А. Нумизматика Азербайджана - Баку, 1992.
7. Одноралов Н.В. Техника медальерного искусства - М., 1983.
8. Рагозина З.А. История древнего Востока, т.I. История Халдеи. II.-б, 1903, с.220.
9. Burchard Brendjes Die iranische Welt vor Mohammed. Koehler and Amelang - Leipzig, 1978.
10. Chardin J.B. Voyages du Chevalitr Chardin en Perse - Paris, 1811.
11. Hammer J. Histoire de L Empire Ottoman. T. IV - Paris, 1836.
12. Rabino H.L. Album of coins medals and seals of the shahs of Iran (1500-1941) - Hertford, 1945.